4 sentyabr 2009-cu il

Azərbaycan Bakı 370066
İstiqlaliyyət küçəsi 19

Prezident İlham Əliyevə

Hörmətli cənab Prezident Əliyev,

Biz, Söz azadlığı uğrunda Qlobal Kampaniya “ARTİCLE 19”, “Human Right Watch” və Beynəlxalq PEN təşkilatları azərbaycanlı gənc fəallar Emin Milli və Adnan Hacızadənin saxlanması, onların barələrində ilkin həbs-qəti imkan tədbiri seçilməsi ilə əlaqədar dərin narahatlığımızı ifadə edirik. Gənc fəalların məhkəməsi bu gün, sentyabr ayının 4-də başlandığına görə, diqqətinizi həmin işlə bağlı bizi narahat edən bəzi məsələlərə yönəltmək, Azərbaycanın söz azadlığını qorumaq, ədalətli və açıq mühakimə prosesi hüquqlarının müstəqil və qərəzsiz məhkəmə orqanı tərəfindən qorunmasını təmin etmək barədə öhdəliyini bir daha xatırlatmaq istəyirik.

Biz sizdən təkidlə xahiş edirik ki, Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq, Emin Milli və Adnan Hacızadənin işi ilə bağlı ədalətli məhkəmə prosesinin, o cümlədən bu işi nəzərdən keçirəcək Səbayel Rayon Məhkəməsinin həqiqi müstəqil fəaliyyətinin təmin olunması üçün bütün mümkün tədbirləri görəsiniz.

8 iyul 2009-cu il tarixinə olan məlumata görə, Emin Milli və Adnan Hacızadə Bakıdakı restoranların birində açıq-aşkar fitnəkarlıqla edilmiş fiziki hücuma məruz qalmışlar. Şahidlərin bildirdiyinə görə, gənclər öz təşkilatlarının fəaliyyəti barədə müzakirə apadıqları zaman onlara
iki kənar şəxs yaxınlaşmış və belə məsələlərin müzakirəsini dayandırmaq tələbi irəli sürərək onlara hücum etmişlər. Bundan sonra Səbayel Rayon Polis şöbəsinə gedən Milli və Hacızadə zərərçəkənlər kimi hücuma məruz qaldıqları və tibbi yardıma ehtiyacları olduğu barədə şikayət ərizəsi yazmışlar. Polis onları nəinki tibbi yardımla təmin etməmiş, əksinə, vəkillərin iştirakı olmadan beş saat ərzində dindirmişdir. Sonra Milli və Hacızadə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 221-ci maddəsi ilə “xuliqanlıq”da təqsirləndirilərək həbs olunmuşlar. Onlara hücum edən şəxslər isə azad buraxılmışlar. Milli və Hacızadəyə növbəti günün sonuna kimi vəkillə əlaqə yaratmağa icazə verməmişlər.

İyul ayının 10-da Səbayel Rayon Məhkəməsi Milli və Hacızadənin barələrində ilkin həbs-qəti imkan tədbiri seçilməsi və onların iki ay müddətinə həbs edilməsi barədə qərar çıxarmış, sonradan bu qərarı dəyişmək üçün verilən Appelyasiya şikayəti isə təmin olunmamışdır. Məlum hücum hadisəsi ilə bağlı aparılan təhqiqat nəticəsində avqust ayının 27-də polis onlara qarşı qəsdən sağlamlığa az ağır xəsarəti yetirməyə görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 127-ci maddəsi üzrə yeni bir ittiham da irəli sürmüşdür:.

Biz indiyə qədər davam edən bir sıra məsələlərlə, xüsusilə, Milli və Hacızadənin zərərçəkən kimi polisə müraciət etdikləri andan Azərbaycanın vəzifəli şəxslərinin fəaliyyəti ilə bağlı dərin narahatlıq hissi keçiririk. Bizim xüsusi narahatlığımıza səbəb olan məsələlər aşağıdakılardır:

- Vətəndaşlıq fəaliyyətinə görə tanınan və məlum hücumdan əvvəlki həftələr ərzində hökuməti açıq şəkildə tənqid edən Milli və Hacızadənin hədəfə alınması
- Milli və Hacızadənin zərərçəkən olaraq hücuma məruz qaldıqları barədə şikayətlərini Səbayel Rayon Polis şöbəsinin ciddi nəzərə almaması, onların qanunsuz həbs olunması və hücum edən şəxslərin azad buraxılması
- Milli və Hacızadənin təcili və müvafiq tibbi yardımla təmin olunmasına yardım göstərməkdən Səbayel Rayon Polis şöbəsinin imtina etməsi
- Milli və Hacızadə saxlandıqdan sonra təxminən 18 saata qədər onların seçdikləri vəkillə əlaqə saxlamasına Səbayel Rayon Polis şöbəsinin imkan yaratmaqdan imtina etməsi
- Milli və Hacızadənin ilkin həbs qəti-imkan tədbiri kimi iki aylığa həbs olunması barədə Səbayel Rayon Məhkəməsinin törədildiyi iddia edilən “xuliqanlıq” hərəkətinin mahiyyətinə görə həddən artıq sərt görünən qərarı.

Vətəndaş haqları və Siyasi Hüquqlar haqqında Beynəlxalq Müqaviləyə (VHSBM) əsasən Azərbaycanın söz azadlığını qorumaq və həbs olunanların hüquqlarını saxlandıqları andan təmin etmək öhdəliyi var. BMT-nin İnsan Hüquqları Komitəsi Azərbaycanın VHSBM-in tələblərini yerinə yetirməsi üzrə 13 avqust 2009-cu il tarixli Yekun Müşahidələrində tövsiyə edir ki, bu ölkə "Dövlət Konstitusiyasının tələb etdiyi qaydada, diskriminasiyaya yol vermədən bütün şəxslərin narazılıqları ilə bağlı sistemli hüquqi yardımın təmin olunması üçün təcili tədbirlər görsün." Komitə məhkəmələrdə korrupsiya ilə bağlı hesabatlardan da narahatlığını bildirir və tövsiyə edir ki, Azərbaycan "tam müstəqil hüquqi məhkəmə sistemi təmin emək üçün öz səylərini gücləndirsin".

Vətəndaşlıq fəaliyyətinin ifadəsi kimi elektron jurnalın hazırlanması ilə məşğul olan Milli və Hacızadənin mühakimə edilməsi ölkədə mətbuat azadlığı sahəsində vəziyyətin xüsusilə pisləşməsindən xəbər verir. Biz hal-hazırda Azərbaycanda söz azadlığının ciddi təhlükə qarşısında olması, insanları və fərqli mövqelər səsləndirən mətbu nəşrləri susdurmaq üçün müxtəlif metodlardan istifadə edilməsi ilə əlaqədar narahatlığımızı bildiririk. Jurnalistlər və mətbuat nümayəndələri təqib olunur, hədələnir, peşə fəaliyyətlərinə görə hücuma məruz qalır, bundan əvvəl isə müxalif və müstəqil fikirli jurnalistləri mühakimə etmək üçün böhtandan və saxta ittihamlardan istifadə olunmuşdur. Qənimət Zahid, Eynulla Fətullayev və Müşfiq Hüseynov saxta cinayət maddələri ilə həbsdə qalmaqdadırlar; milli azlıqları təmsil edən qəzetin redaktoru Novruzəli Məmmədov avqust ayının 17-də həbsxanada vəfat etmişdir. Bu, Məmmədovun uydurma xəyanət ittihamı ilə mühakimə olunaraq həbsdə yatdığı müddətdə səlahiyyətli orqanların ona Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun standartlar səviyyəsində qayğı göstərməməsindən sonra baş vermişdir. 2005-ci ilin mart ayında qətlə yetirilən redaktor Elmar Hüseynova qarşı törədilmiş cinayət faktının üstü açılmamış qalır. Yuxarıda istinad olunan Yekun Müşahidələrində BMT-nin İnsan Hüquqları Komitəsi vəziyyətlə bağlı narahatlığını ifadə edərərk, Azərbaycanı "söz azadlığına olan birbaşa və dolayı məhdudiyyətlərə son qoyulması üçün zəruri tədbirlər görməyə" çağırır.

Azərbaycan rəhbərliyi keçmişdə bir çox məsələlərlə bağlı demokratikləşmə və insan haqları üzrə öhdəliyini rəsmi şəkildə bəyan etmişdir. Biz Azərbaycanın VHSBM və İnsan Haqlarına dair Avropa Konvesiyası üzrə müvafiq öhdəliklərinə uyğun olaraq, Emin Milli və Adnan Hacızadənin məhkəməsinin müstəqil və açıq keçirilməsi üçün təxirəsalınmaz və konkret addımlar atmağı təkidlə Sizdən xahiş edirik.

Hörmətlə,
Aqnes Kallamard, "ARTİCLE 19" təşkilatının İcraçı direktoru
Holli Kartner, "Human Right Watch" təşkilatının Avropa və Orta Asiya bölməsi üzrə İcraçı direktoru
Karin Klark, Həbsxanalar üzrə Komitənin Beynəlxalq PEN Yazarlar təşkilatının sədri

Surəti: Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi